UOT 327

ELGÜN İBRAHİMZADƏ
Qərbi Kaspi Universitetinin doktorantı
Orcid: 0009-0001-2881-4757
ibrahimovelgun.2000@gmail.com

MÜASİR TƏHLÜKƏSİZLİK TƏHDİDLƏRİ VƏ PREZİDENTLİK İNSTİTUTUNUN ROLU: AZƏRBAYCAN ÖRNƏYİNDƏ

DOI: https://doi.org/10.36719/2708-065X/110/231-238

Müasir beynəlxalq sistemdə təhlükəsizlik təhdidləri ənənəvi hərbi risklərdən çoxölçülü risklərə transformasiyaya uğramışdır. Geosiyasi dəyişikliklər, iqtisadi asılılıq, texnoloji inkişaf və transsərhəd çağırışlar təhlükəsizlik mühitini dəyişdirərək adaptiv idarəetmə və çevik qərarqəbuletmə mexanizmlərini zəruri etmişdir. Bu kontekstdə prezidentlik institutu milli təhlükəsizlik siyasətinin formalaşdırılmasında həlledici əhəmiyyət kəsb edir. Məqalə müasir təhlükəsizlik təhdidləri ilə prezidentlik institutunun qarşılıqlı əlaqəsini Azərbaycan nümunəsində təhlil edir. Araşdırma, xüsusilə 2020-ci il Vətən müharibəsindən sonrakı mərhələdə mərkəzləşdirilmiş icra hakimiyyətinin böhranlara reaksiyasını və təhlükəsizlik siyasətində konsensus elementlərinin rolunu nəzəri və praktiki aspektlərdən qiymətləndirir. Azərbaycanın strateji mövqeyi, enerji resursları və regional dinamika prezidentlik liderliyinin təhlükəsizlik idarəçiliyindəki funksiyasını öyrənmək üçün mühüm zəmin yaradır. Məqalə konstitusiya islahatlarının, institusional inkişafın və prezidentlik sistemində qəbul edilən strateji qərarların təhlükəsizlik arxitekturasına təsirini, həmçinin hərbi, enerji, kiber və diplomatik müstəvilərdə prezidentlik institutunun rolunu hərtərəfli şəkildə araşdırır.

Açar sözlər: Prezidentlik institutu, Milli təhlükəsizlik, Müasir təhlükəsizlik təhdidləri, Dövlət idarəetməsi, Regional sabitlik, Geosiyasi dinamika, Təhlükəsizlik siyasəti, Konstitusiya islahatları, Strateji qərarvermə.

Giriş. Müasir dövrdə təhlükəsizlik təhdidləri hər bir dövlət üçün vacib və prioritet məsələlərdən biridir. Bu təhdidlərin növləri təsir dərəcəsinə görə müxtəlif olsa da, bütün istiqamətlərdən dövlətləri təhdid edirlər. Müasir dünyada geosiyasi, iqtisadi, sosial, texnoloji dəyişikliklərin sintezindən yaranan çoxşaxəli təhlükəsizlik təhdidləri hibrid müharibələr, kiberhücumlar, informasiya manipulyasiyası, beynəlmiləl təşkilatların fəaliyyətinin pozulması, təbii fəlakətlər, pandemik xəstəlikləri kimi sahələri əhatə edir. Bu istiqamətdə, qeyd etdiyimiz təhdidlər hər biri dövlətin müstəqilliyini, suverenliyini və sosial-əxlaqi birliyini əhəmiyyətli dərəcədə təhdid edir. Nəticədə dövlətlərin təhlükəsizlik siyasətləri, idarəetmə strukturları və strategiyaları bu təhdidlərin dərin analizinə və sürətli cavab mexanizmlərinə əsaslanmağa yaxud adaptiv davranmağa yönləndirir.

Azərbaycan Respublikasının yerləşdiyi coğrafiya qeydlərimizdə öz əksini tapan regionlardan biridir. Qafqazda cəmi 3 müstəqil dövlət varlığını qorusa da regionda maraqlı olan tərəflərin iştirakı ilə region olduqca ciddi təhlükələrlə, müdaxilələrlə və ümumilikdə təhdidlərlə üzləşir. Bu əsasda regionda siyasi hesablamalar, siyasi və iqtisadi stabillik çox ciddi əhəmiyyət kəsb edir.

Regionun hərbi, iqtisadi və siyasi baxımdan ən güclü dövləti olan Azərbaycan Respublikası proqnostik müşahidələr əsasında regional təhlükəsizlik mühitinin inkişaf trayektoriyasını müəyyənləşdirən əsas aktor kimi çıxış edir. Bu prosesdə dövlət idarəçiliyi sisteminin mərkəzi elementi olan prezidentlik institutu xüsusi əhəmiyyət kəsb edir. Prezidentlik institutu həm qərarların operativ qəbulunu, həm də strateji istiqamətlərin müəyyənləşdirilməsini təmin etməklə milli təhlükəsizliyin qorunmasında və regional sabitliyin möhkəmləndirilməsində həlledici funksiyanı icra edir.

"Prezident" (lat: Praesidens) sözü latıncada "öndə oturan" deməkdir. Müasir dövrdə prezidentlik institutu özlüyündə əsas qərarverici mexanizmin prezidentdə olması mənasına gəlir [10, s.238]. Məsələn Azərbaycan Respublikası Konstitusiyasının 9-cu maddəsinin 3-cü bəndində Azərbaycan Respublikası Prezidentinin eyni zamanda da Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ali Baş Komandanı olması dəqiq şəkildə təsbit edilmişdir [5]. Bu əsasda, ölkəmizdə prezidentin səlahiy-

yətlərini vurğuladığımız qısa örnəkdə prezidentlik institutunun mərkəzində prezidentin dayandığını qeyd etmək olar. Başqa bir nümunəni də ABŞ-dan örnək göstərmək olar ki, ABŞ Konstitutiyasının 2-ci maddəsinin 2-ci və 3-cü bölmələrində qeyd olunduğu kimi prezident geniş icra səlahiyyətlərinə malikdir. Belə ki, prezident ölkənin Silahlı Qüvvələrinin ali baş komandanı olmaqla yanaşı, icra departamentlərinin rəhbərlərindən hesabat tələb etmək hüququna sahibdir. Prezident, Senatın razılığı ilə beynəlxalq müqavilələr bağlamaq, səfirlər və digər diplomatik nümayəndələri, həmçinin Ali Məhkəmənin hakimlərini və qanunvericilikdə nəzərdə tutulan digər yüksək vəzifəli şəxsləri təyin etmək səlahiyyətinə malikdir. Bununla yanaşı, o, Konqresə mütəmadi olaraq "İttifaqın vəziyyəti" barədə hesabat verir və qanunvericilik təşəbbüsləri irəli sürə bilər. Zəruri hallarda prezident Konqresin hər iki Palatasını çağırmaq və sessiyaların vaxtını müəyyən etmək hüququna da sahibdir [10, s. 239].

Prezidentlik institutunun mahiyyətini müəyyən edən əsas amillərdən biri də dövlət hakimiyyətinin qolları arasında münasibətlərin tənzimlənməsində onun roludur. Prezident yalnız icra hakimiyyətinin başçısı olmaqla kifayətlənməyib, həm də dövlətin daxili və xarici siyasət kursunun formalaşdırılmasında əsas aktor funksiyasını yerinə yetirir. Bu mənada prezidentlik institutu siyasi sistemin sabitliyi, idarəetmə proseslərinin mərkəzləşdirilməsi və milli təhlükəsizliyin təmin edilməsində strateji əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasında mövcud olan prezidentlik idarəetmə forması həm "tam prezidentlik" modelinin elementlərini, həm də milli konstitusion xüsusiyyətləri özündə birləşdirir. Bu, bir tərəfdən prezidentin güclü legitimlik bazasına malik olmasını təmin edir, digər tərəfdən isə dövlətin bütün sahələrində koordinasiyanın vahid mərkəzdən həyata keçirilməsinə imkan yaradır. Beləliklə, prezidentlik institutu yalnız formal idarəetmə mexanizmi deyil, həm də dövlətin siyasi, hüquqi və təhlükəsizlik arxitekturasının əsas sütunlarından biri kimi çıxış edir.

2025-ci il etibarilə dünyada 46 dövlət (31,9%) dövlət tam prezidentlik idarəetmə forması, 36-sı (25%) yarım-prezidentlik idarəetmə forması, 45-i (31,3%) parlament respublika idarəetmə forması ilə idarə edilir [19]. Ümumilikdə yarı və tam prezidentli idarəetmə forması 50%-dən yüksək olduğu görünür ki, bu idarəetmə forması həm ümumi idarəetmə təcrübəsini, həm də geosiyasi reallığı göstərir.

Müasir təhlükəsizlik təhdidləri: nəzəri çərçivə. Təhlükəsizlik anlayışı beynəlxalq münasibətlər nəzəriyyəsində ən çox müzakirə olunan və zamanla məzmun baxımından transformasiyaya uğrayan kateqoriyalardan biridir. Klassik yanaşmalarda təhlükəsizlik daha çox dövlətin hərbi gücü və ərazi bütövlüyünün qorunması ilə eyniləşdirilmişdir [16]. Bu çərçivədə təhlükəsizlik, əsasən, dövlətlərin müharibə və ya silahlı toqquşma riskindən müdafiəsi kimi dərk olunurdu.

Lakin XX əsrin sonlarından etibarən təhlükəsizlik konsepsiyasına münasibətdə yeni – müasir yanaşmalar formalaşmağa başlamışdır. Bu yanaşmalar dövlət-mərkəzli anlayışdan kənara çıxaraq, qeyri-hərbi ölçüləri də nəzərə almağa yönəlmişdir. Belə ki, iqtisadi təhlükəsizlik dövlətin davamlı inkişafı və iqtisadi asılılıqlardan müdafiəsini, enerji təhlükəsizliyi resursların etibarlı və davamlı təminatını, kiber təhlükəsizlik isə rəqəmsal məkanın qorunmasını ifadə edir [2].

Bu baxımdan, müasir təhlükəsizlik nəzəriyyəsi daha kompleks və çoxölçülü xarakter daşıyır. Təhlükəsizlik artıq yalnız hərbi gücün qorunması deyil, həm də iqtisadi sabitlik, enerji resurslarının davamlılığı, informasiya mühitinin müdafiəsi kimi elementləri özündə ehtiva edən geniş spektrli bir anlayış kimi qəbul edilir [4].

Prezidentlik institutunun təhlükəsizlik siyasətində rolu barədə nəzəri modellər. Prezidentlik institutunun təhlükəsizlik siyasətində rolu dövlətin idarəçilik modelindən, siyasi mədəniyyətindən və beynəlxalq təhlükəsizlik mühitindən asılı olaraq müxtəlif formalarda təzahür edir. Bu kontekstdə siyasi elmdə əsas nəzəri çərçivələrdən ikisi – Xuan Linz və Arend Lijphart nəzəriyyələri – geniş müzakirə olunur. Xuan Linz prezidentlik institutunu güclü icra hakimiyyətinə əsaslanan idarəçilik modeli kimi qiymətləndirərək, böhran və təhlükəsizlik çağırışları qarşısında çevik qərarvermə imkanlarını xüsusi vurğulayır [7]. Onun fikrincə, prezidentlik sistemi fövqəladə hallarda milli təhlükəsizlik strategiyasının sürətlə hazırlanmasını və həyata keçirilməsini təmin edir. ABŞ nümunəsində olduğu kimi, prezidentin "Ali Baş Komandan" statusu təhlükəsizlik siyasətində qətiyyətli liderlik imkanları yaradır [3]. Linz eyni zamanda bu modelin risklərini – gücün həddindən artıq mərkəzləşdirilməsini

və avtoritar meyllərin yaranmasını - da önə çəkir[8]. Fəqət, prezidentlik institutu doğru tətbiq edildiyi zaman sabitliyə və inkişafa da aparır ki, Azərbaycan örnəyində biz bunu görürük. Linzin fikrlərinə başqa bir arqument isə güc haçalanması qeyd edilə bilər. Belə ki, dövlət daxilində həddindən artıq güc mərkəzlərinin mövcudluğu, daxili ixtilaflar və münaqişələrə sürüklənmə ehtimalını artırır. Bu istiqamətdə Azərbaycan örnəyində prezidentlik institunun uğurlu olduğunu qeyd etmək olar.

Arend Lijphart isə konsensus demokratiyası nəzəriyyəsində təhlükəsizlik siyasətini yalnız icra hakimiyyətinin deyil, həm də qanunverici orqanların, məhkəmə hakimiyyətinin və cəmiyyətin digər institutlarının iştirakı ilə həyata keçirilməsini vacib sayır [1]. Onun nəzərinə görə, təhlükəsizlik siyasətində legitimliyin təmin edilməsi üçün siyasi qüvvələrin geniş konsensusu tələb olunur. Avropa İttifaqında və NATO-da kollektiv qərarvermə mexanizmləri bu yanaşmanın praktik nümunələridir [15].

Azərbaycan nümunəsində prezidentlik institutu milli təhlükəsizlik siyasətində mərkəzi mövqeyə malikdir. Konstitusiyaya əsasən, Prezident Silahlı Qüvvələrin Ali Baş Komandanıdır və dövlətin milli təhlükəsizlik strategiyasının əsas istiqamətlərini müəyyənləşdirir. 1990-cı illərin əvvəllərində siyasi qeyri-sabitlik və Qarabağ münaqişəsinin kəskinləşməsi fonunda prezidentlik institutunun gücləndirilməsi ölkənin milli təhlükəsizliyinin təminində həlledici rol oynamışdır. Xüsusən, 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" enerji təhlükəsizliyi ilə yanaşı, Azərbaycanın xarici tərəfdaşlarla təhlükəsizlik əməkdaşlığını da gücləndirmişdir. Bundan əlavə, 2020-ci ildə 44 gün davam edən Vətən müharibəsi (II Qarabağ müharibəsi) zamanı Prezident, Ali Baş Komandan İlham Əliyevin qəbul etdiyi strateji qərarlar sürətli və koordinasiyalı hərbi əməliyyatların həyata keçirilməsində həlledici rol oynamışdır.

Beləliklə, Azərbaycan nümunəsi Linz modelinin çevik qərarvermə və güclü icra hakimiyyətinə dair arqumentlərini təsdiq edir. Bununla yanaşı, müharibədən sonrakı dövrdə beynəlxalq təşkilatlarla və regional aktorlarla təhlükəsizlik əməkdaşlığında Lijphartın konsensus yanaşmasının elementləri də özünü göstərməkdədir. Bu, onu göstərir ki, prezidentlik institutunun təhlükəsizlik siyasətində rolu yalnız nəzəri modellərlə məhdudlaşmır, həm də real tarixi və regional kontekstlərdə formalaşır.

Post-2020 dövründə Azərbaycan prezidentlik institutunun təhlükəsizlik siyasətində rolu. 44 gün davam edən Vətən müharibəsi (II Qarabağ müharibəsi) Azərbaycanın milli təhlükəsizlik mühitində yeni reallıqlar yaratdı və prezidentlik institutunun bu sahədəki rolunu daha da gücləndirdi. Müharibə kontekstində Prezident və Ali Baş Komandan İlham Əliyevin qəbul etdiyi strateji qərarlar operativ hərbi fəaliyyətlərin koordinasiyasının təmin edilməsində, eləcə də informasiya, diplomatik və hərbi resursların inteqrasiyasında həlledici əhəmiyyət kəsb etmişdir. Bu dövrdə prezidentlik institutunun gücün mərkəzləşdirilməsi xüsusiyyəti Linz modelində vurğulanan çevik qərarvermə mexanizmlərinin təsdiqi kimi qiymətləndirilə bilər.

Müharibədən sonrakı dövrdə Azərbaycan prezidentlik institutu yalnız hərbi deyil, həm də diplomatik və iqtisadi təhlükəsizlik siyasətində aktiv mövqeyini qorudu. 2021-ci ildə imzalanmış Azərbaycan-Türkiyə "Şuşa Bəyannaməsi" regionda təhlükəsizlik təminatında strateji müttəfiqlik elementlərini daha da gücləndirdi [12]. Bu bəyannamə prezidentlik institutunun regional təhlükəsizlik arxitekturasında birbaşa həlledici aktor olduğunu göstərir.

Bundan əlavə, Zəngəzur dəhlizinin gündəmə gətirilməsi və regiondakı yeni kommunikasiya xətlərinin açılması təşəbbüsləri prezidentlik institutunun milli təhlükəsizliklə yanaşı, iqtisadi təhlükəsizlik və geosiyasi balans yaratma funksiyasını da ön plana çıxarmışdır. Prezidentin bu məsələdə qətiyyətli mövqeyi Azərbaycanın regional nəqliyyat və enerji layihələrində aparıcı mövqeyini möhkəmləndirir [18]. Eyni zamanda, post-2020 mərhələsində beynəlxalq diplomatiyada Azərbaycan prezidentlik institutu təhlükəsizlik siyasətini legitimləşdirmək və beynəlxalq əməkdaşlığı dərinləşdirmək məqsədilə çoxşaxəli siyasət yürütmüşdür. Avropa İttifaqı, Rusiya, İran və Mərkəzi Asiya dövlətləri ilə paralel danışıqlar və balanslaşdırılmış siyasət Lijphartın konsensus yanaşmasının regional adaptasiyası kimi qəbul oluna bilər.

Nəticə etibarilə, post-2020 dövrü göstərir ki, Azərbaycan prezidentlik institutu həm Linz modelinin çevik icraetmə üstünlüklərini, həm də Lijphartın legitimlik və konsensus əsaslı yanaşmalarını sintez edərək milli və regional təhlükəsizlik siyasətində həlledici mövqeyə sahibdir.

Azərbaycan kontekstində prezidentlik institutu. Konstitusiya və qanunvericilik bazası: 1995

Konstitusiyası və sonrakı dəyişikliklər (2002, 2009, 2016). Azərbaycan Respublikasının dövlət idarəçiliyinin hüquqi əsaslarını formalaşdıran 1995-ci il Konstitusiyası ölkədə prezidentlik institutunun mərkəzi rolunu təsbit etmişdir. Konstitusiya prezidentin dövlətin başçısı, icra hakimiyyətinin rəhbəri və Silahlı Qüvvələrin Ali Baş Komandanı statusunu müəyyənləşdirməklə onun milli təhlükəsizlik siyasətində əsas aktor kimi çıxış etməsini təmin etmişdir [14]. Konstitusiyanın 9-cu maddəsində milli təhlükəsizlik dövlətin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünün qorunması ilə birbaşa əlaqələndirilmişdir.

2002-ci il konstitusiya dəyişikliyi dövlət idarəçiliyində daha çevik qərarvermə mexanizmlərini təmin etmiş, seçki sistemi və hakimiyyət bölgüsü məsələlərində müəyyən islahatlara gətirib çıxarmışdır [17]. 2009-cu il referendumunda prezidentlik müddətinə qoyulan limitin aradan qaldırılması idarəetmədə davamlılığı gücləndirmişdir və eyni zamanda siyasi müzakirələrdə prezidentliyin institusional balans üzərində dominant mövqeyini artırdığına dair arqumentləri önə çıxarmışdır. 2016-cı il konstitusiya islahatları nəticəsində vitse-prezidentlik institutu yaradılmış və Prezidentə əlavə icra səlahiyyətləri verilmişdir. Bu dəyişikliklər, xüsusilə milli təhlükəsizlik siyasətində koordinasiya və idarəçilik effektivliyini artırmaq baxımından mühüm rol oynamışdır.

Prezidentin səlahiyyətləri: qanunvericilik təşəbbüsü, milli təhlükəsizlik, müdafiə və diplomatiya sahəsində rolu. Azərbaycan Prezidenti yalnız icra hakimiyyətinin rəhbəri deyil, həm də qanunvericilik təşəbbüsü hüququna malikdir [14]. Bu səlahiyyət ona təhlükəsizlik siyasətində normativ-hüquqi bazanın formalaşdırılmasına bilavasitə təsir imkanı verir. Prezident həmçinin milli təhlükəsizlik strategiyalarını təsdiqləyir, Silahlı Qüvvələrin inkişaf istiqamətlərini müəyyənləşdirir və beynəlxalq müqavilələr bağlamaq səlahiyyətinə malikdir [6].

Diplomatiya sahəsində Prezident ölkənin xarici siyasət kursunu müəyyən edir və beynəlxalq münasibətlərdə Azərbaycanın maraqlarını müdafiə edir. Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən enerji layihələri – Bakı–Tbilisi–Ceyhan neft kəməri, Bakı–Tbilisi–Ərzurum qaz kəməri və Cənub Qaz Dəhlizi – həm milli, həm də regional təhlükəsizlik siyasətində strateji dönüş nöqtəsi olmuşdur. Bu layihələr vasitəsilə Azərbaycan yalnız enerji ixracatçısı kimi deyil, həm də Avropanın enerji təhlükəsizliyinin təminatında mühüm tərəfdaş kimi çıxış etmişdir.

Müdafiə sahəsində Prezident Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi hərbi əməliyyatların idarə olunmasında əsas qərarverici şəxsdir. 2020-ci il Vətən müharibəsi Prezidentin bu funksiyasının praktik reallaşmasını göstərmişdir. Strateji qərarların qısa müddətdə qəbul edilməsi və diplomatik müstəvidə paralel fəaliyyət hərbi əməliyyatların effektivliyini artırmışdır [13].

Tarixi inkişaf və son islahatlar: Ümummilli lider Heydər Əliyevin və layiqli davamçısı İlham Əliyevin dövrləri, prezident səlahiyyətlərinin gücləndirilməsi. Heydər Əliyev dövründə (1993–2003) prezidentlik institutu dövlətin sabitliyinin təminatçısı kimi çıxış etmişdir. Ölkədə siyasi parçalanma və müharibə şəraitində prezidentin hakimiyyətin mərkəzləşdirilməsi istiqamətində atdığı addımlar dövlətçiliyin bərpasında mühüm rol oynamışdır. 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" yalnız enerji təhlükəsizliyi deyil, həm də Azərbaycanın beynəlxalq müttəfiqlərlə strateji tərəfdaşlıq qurmaq imkanlarını genişləndirmişdir [12].

İlham Əliyev dövründə (2003–indiyədək) prezidentlik institutunun rolu daha da güclənmişdir. Onun dövründə aparılan hərbi islahatlar, ordu quruculuğu və müdafiə sənayesinin inkişafı nəticəsində Azərbaycan regional güc mərkəzlərindən birinə çevrilmişdir [13]. 2016-cı ildə keçirilmiş konstitusiya islahatları prezidentin idarəetmə mexanizmlərini daha da möhkəmləndirmiş, milli təhlükəsizlik siyasətində qərarların qəbulunu operativləşdirmişdir.

Azərbaycan təhlükəsizlik siyasətinin əsas prioritetləri: Dağlıq Qarabağ, enerji təhlükəsizliyi, regional diplomatiya. Azərbaycanın milli təhlükəsizlik siyasətinin mərkəzində uzun illər ərzində Dağlıq Qarabağ münaqişəsi dayanmışdır. Ərazi bütövlüyünün bərpası dövlətin milli təhlükəsizlik konsepsiyasının əsas hədəfi olmuşdur [17]. 2020-ci il Vətən müharibəsində əldə edilmiş qələbə bu prioritetin strateji nəticəyə çevrilməsini təmin etdi.

Enerji təhlükəsizliyi Azərbaycanın ikinci əsas prioritetidir. Enerji resurslarının ixracı ölkənin iqtisadi təhlükəsizliyini gücləndirməklə yanaşı, beynəlxalq münasibətlərdə də əhəmiyyətli rıçaq rolunu oynamışdır.

Regional diplomatiya isə Azərbaycanın təhlükəsizlik siyasətində balanslaşdırılmış yanaşma kimi təzahür edir. Azərbaycan həm Rusiya, həm Türkiyə, həm də Qərb ölkələri ilə paralel əməkdaşlıq edərək regional sabitlikdə tarazlaşdırıcı mövqe tutmağa çalışır [6]. Bu siyasət post-2020 dövründə daha da aktuallaşmışdır: Şuşa Bəyannaməsi ilə Türkiyə ilə müttəfiqlik əlaqələrinin dərinləşdirilməsi, eyni zamanda Rusiya və Avropa ilə əməkdaşlığın davam etdirilməsi buna nümunədir [13].

Müasir təhlükəsizlik təhdidləri və Azərbaycan prezidentliyi. Azərbaycanın müasir təhlükəsizlik mühiti regional geosiyasi dinamikanın və qlobal proseslərin kəsişmə nöqtəsində formalaşır. Bu kontekstdə təhlükəsizlik yalnız hərbi aspektlə məhdudlaşmır; enerji təhlükəsizliyi, informasiya təhlükəsizliyi, kiberməkanda yaranan risklər, iqlim dəyişiklikləri və transsərhəd çağırışlar kimi çoxölçülü faktorlarla şərtlənir.

Enerji infrastrukturu milli iqtisadiyyatın dayanıqlığını və Azərbaycanın beynəlxalq sistemdəki strateji mövqeyini müəyyən edən başlıca elementdir. Bakı–Tbilisi–Ceyhan neft kəməri və Cənub qaz dəhlizi kimi transregional layihələr təkcə iqtisadi inkişafın təminatçısı deyil, həm də ölkənin geosiyasi çəkisini möhkəmləndirən alətlər kimi çıxış edir. Bu səbəbdən, həmin infrastrukturun təhlükəsizliyinin qorunması yalnız fiziki müdafiə mexanizmləri ilə məhdudlaşmır; eyni zamanda kiberhücumların qarşısının alınması, informasiya axınının sabitliyi və beynəlxalq tərəfdaşlarla koordinasiyalı təhlükəsizlik siyasəti tələb olunur.

Prezidentlik institutu bu mürəkkəb təhlükəsizlik mühitində strateji qərarların qəbulunda mərkəzi funksiyanı yerinə yetirir. Güclü icra hakimiyyətinə malik olan prezidentlik modeli, milli maraqların qorunması, enerji infrastrukturunun müdafiəsi və təhlükəsizlik konsepsiyasının adaptiv şəkildə formalaşdırılması baxımından əsas siyasi-institusional dayaqlardan biri hesab olunur.

Bundan başqa, Azərbaycan–NATO əməkdaşlığı "Sülh Naminə Tərəfdaşlıq" proqramı (Partnership for Peace) çərçivəsində regional təhlükəsizlik məsələlərində praktik imkanlar yaradır. NATO ilə tərəfdaşlıq həm texniki-əməliyyat, həm də siyasi dialoq üçün platforma təmin edir, lakin bu əməkdaşlıq Azərbaycanın balanslaşdırılmış xarici siyasəti fonunda selektiv və məhdud xarakter daşıyır [11].

Prezidentlik institutunun cavab tədbirləri: Prezidentlik institutu təhlükəsizlik çağırışlarına müxtəlif mexanizmlərlə cavab verir: strateji qərarların sürətli qəbulu, diplomatik təşəbbüslər, hərbi və enerji təhlükəsizliyinin təminatı, beynəlxalq əməkdaşlığın təşkili. Xüsusilə, Türkiyə ilə strateji tərəfdaşlığın Şuşa Bəyannaməsi ilə yeni mərhələyə çıxarılması prezidentlik institutunun regional təhlükəsizlik arxitekturasında həlledici aktor olduğunu göstərir [12].

Analitik müqayisə: nəzəri çərçivə ilə Azərbaycan təcrübəsi: Linz və Lijphart nəzəri modellərinin prizmasından yanaşdıqda, Azərbaycan prezidentlik institutunun təcrübəsi hibrid forma alır. Bir tərəfdən, Linz modelinə uyğun olaraq icra hakimiyyətinin mərkəzləşməsi və çevik qərarvermə imkanları 2020-ci il müharibəsi dövründə özünü göstərmişdir [7]. Digər tərəfdən, Lijphartın vurğuladığı konsensus yanaşması elementləri beynəlxalq aktorlarla dialoq və çoxtərəfli razılaşmalar vasitəsilə təhlükəsizlik siyasətində hiss olunur [11].

Prezidentlik institutunun effektivliyi

1. **Operativlik və koordinasiya.** Prezident İlham Əliyevin rəhbərliyi altında prezidentlik institutu böhranlı şəraitlərdə çevik qərarvermə qabiliyyətini nümayiş etdirmişdir. Xüsusilə, 2020-ci ildə hərbi əməliyyatlar zamanı siyasi, diplomatik və hərbi resursların koordinasiyası ölkənin təhlükəsizlik sisteminin effektivliyini əyani şəkildə sübut etmişdir.
2. **Strateji diplomatiya.** Prezident İlham Əliyevin təşəbbüsləri nəticəsində Azərbaycan yalnız regional deyil, həm də beynəlxalq miqyasda balanslaşdırılmış və çoxşaxəli xarici siyasət yürüdür. Enerji layihələrinin təşviqi və strateji tərəfdaşlıqların qurulması (o cümlədən Şuşa Bəyannaməsi) ölkənin təhlükəsizlik arxitekturasında mühüm zəmanət kimi çıxış edir [12].

İdarəetmə modelinin xüsusiyyətləri: Prezidentlik institutunun mərkəzləşdirilmiş idarəetmə xüsusiyyəti bəzi hallarda institusional yükü artırsa da, Azərbaycan reallığında bu, daha çox effektivlik, çeviklik və liderlik göstəricisi kimi qiymətləndirilir. İlham Əliyevin uzunmüddətli strateji baxışları və şəxsi diplomatik fəallığı sayəsində təhlükəsizlik siyasəti həm milli maraqlara, həm də beynəlxalq legitimlik prinsiplərinə uyğun şəkildə həyata keçirilir.

Ümumi qiymətləndirmə: Müasir mərhələdə prezidentlik institutu, xüsusilə İlham Əliyevin si-

yasi liderliyi ilə, Azərbaycanı regional təhlükəsizlik sistemində etibarlı və təsirli aktora çevirmişdir. Onun rəhbərliyi altında ölkə milli maraqlarını müdafiə etməklə yanaşı, həm də beynəlxalq əməkdaşlığa və dayanıqlı təhlükəsizlik mühitinin formalaşmasına mühüm töhfələr verir.

Nəticə. Məqalənin nəticələri göstərir ki, müasir dövrdə prezidentlik institutu yalnız formal idarəetmə strukturu deyil, həm də dövlətin təhlükəsizlik arxitekturasının əsas sütunlarından biri kimi çıxış edir. Azərbaycan nümunəsi bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Prezidentlik institutu ölkədə milli maraqların qorunması, strateji sabitliyin təmin edilməsi və regional güc balansının formalaşdırılmasında həlledici rol oynamışdır.

2020-ci il Vətən müharibəsi göstərdi ki, güclü icra hakimiyyətinə əsaslanan prezidentlik modeli fövqəladə vəziyyətlərdə çevik qərarvermə və resursların effektiv koordinasiyası üçün geniş imkanlar yaradır. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qəbul edilən strateji qərarlar hərbi əməliyyatların operativliyini təmin etməklə yanaşı, informasiya müharibəsi, diplomatik təşəbbüslər və beynəlxalq kommunikasiya vasitələri ilə də dəstəklənmişdir. Bu, prezidentlik institutunun yalnız hərbi deyil, həm də siyasi və diplomatik müstəvidə milli təhlükəsizliyin təminatçısı olduğunu sübut etmişdir.

Müharibədən sonrakı dövrdə prezidentlik institutu Azərbaycanın regional və beynəlxalq siyasətində daha geniş strateji missiya icra etmişdir. Şuşa Bəyannaməsi, Zəngəzur dəhlizi təşəbbüsləri, enerji və kommunikasiya layihələrinin təşviqi, NATO və Avropa İttifaqı ilə əməkdaşlıq formatları göstərir ki, Azərbaycan prezidentliyi həm Linz-in çevik icraetmə modelinin, həm də Lijphart-ın konsensus yanaşmasının elementlərini sintez edərək yeni təhlükəsizlik reallıqlarına adaptasiya olunmuşdur.

Eyni zamanda, konstitusiya islahatları, idarəetmə mexanizmlərinin institusional möhkəmləndirilməsi və vitse-prezidentlik institutunun yaradılması prezidentlik sistemini daha çevik və adaptiv hala gətirmişdir. Bu dəyişikliklər yalnız daxili sabitliyi deyil, həm də regional təhlükəsizlik arxitekturasında Azərbaycanın mövqelərinin güclənməsinə xidmət etmişdir.

Beləliklə, Azərbaycan təcrübəsi göstərir ki, prezidentlik institutu müasir təhlükəsizlik çağırışlarına cavab vermək üçün milli səviyyədə effektiv idarəetmə, regional səviyyədə strateji tərəfdaşlıq, qlobal səviyyədə isə çoxşaxəli diplomatiya vasitəsilə dayanıqlı model formalaşdırır. Nəticə etibarilə, post-2020 dövrdə Azərbaycan prezidentliyi həm milli maraqların qorunmasında, həm də regional və beynəlxalq təhlükəsizlik sistemində etibarlı aktor kimi çıxış edir.

ƏDƏBİYYAT

1. A. Lijphart, “Patterns of Democracy: Government Forms and Performance in Thirty-Six Countries”. New Haven: Yale University Press, 1999, p. 368.
2. B. Buzan, O. Waever, J. de Wilde, “Security: A New Framework for Analysis”, Boulder CO: Lynne Rienner, 1998, p. 239.
3. B. R. Barber, “Fear’s Empire: War, Terrorism, and Democracy”. New York: W.W. Norton & Company, 2003, p. 192.
4. D. A. Baldwin, “The Concept of Security”, Review of International Studies, vol. 23, no. 1, pp. 5–26, 1997.
5. E-Qanun, “Azərbaycan Respublikasının Konstitusiyası,” E-qanun.az. URL: https://e-qanun.az/framework/897 [01.10.2025].
6. F. Chiragov, “Azerbaijan’s Foreign Policy - Navigating Regional Security in a Fragmented World - CIRSD,” CIRSD, 2018. URL: https://www.cirsd.org/en/horizons/horizons-winter-2024--issue-no-25/azerbaijans-foreign--policy---navigating-regional-security-in-a-fragmented-world [01.10.2025].
7. J. J. Linz, “The Perils of Presidentialism,” Journal of Democracy, vol. 1, no. 1, pp. 51–69, 1990, URL: https://muse.jhu.edu/article/225694 [01.10.2025].
8. J. J. Linz, A. Valenzuela, “The Failure of Presidential Democracy”. Baltimore: Johns Hopkins University Press, 1994, p. 192.

9. L. Broers, "Armenia and Azerbaijan: Anatomy of a Rivalry". Edinburgh: Edinburgh University Press, 2019, p. 352.
10. N. İbrahimov, "Prezidentli və Parlamentli respublikalarda prezidentliyin əsas xüsusiyyətləri," Oct. 2018, s. 238-248. URL: https://www.elibrary.az/docs/JURNAL/jrn2018_750.pdf [01.10.2025].
11. NATO, "Relations with Azerbaijan / Partnership for Peace," NATO. URL: https://www.nato.int/cps/en/natohq/topics_49111.htm [01.10.2025].
12. President.az, "Shusha Declaration on Allied Relations between the Republic of Azerbaijan and the Republic of Turkey," June 15, 2021. URL: https://president.az/en/articles/view/52122 [01.10.2025].
13. R. Gurbanov, "Military Operations in the Second Karabakh War: Azerbaijan's Strategy, Russia's Stance, and Türkiye's Role". Rusya Araştırmaları Dergisi, vol. 13, pp. 237–273, Jun. 2025, doi: https://doi.org/10.48068/rusad.1636079.
14. S. Həsənova, "Heydər Əliyev və Müstəqil Azərbaycanın İlk Konstitusiyası". Bakı: Azərbaycan nəşriyyatı, 2011, p. 304.
15. S. Keukeleire, T. Delreux, "The Foreign Policy of the European Union". London: Macmillan, 2022, p. 460.
16. S. M. Walt, "The Renaissance of Security Studies," International Studies Quarterly, vol. 35, no. 2, pp. 211–239, 1991.
17. T. de Waal, "Black Garden: Armenia and Azerbaijan through Peace and War". New York: New York University Press, 2003, p. 349.
18. V. Quliyev, "Zangezur Corridor Emerges as Key to Azerbaijan-Armenia Reconciliation," Aircenter.az, 2025. URL: https://aircenter.az/en/single/zangezur-corridor-emerges-as-key-to-azerbaijan-armenia-reconciliation-1876 [01.10.2025].
19. World Population Review, "Countries with Presidents 2022," worldpopulationreview.com, 2025. https://worldpopulationreview.com/country-rankings/countries-with-presidents

ЭЛГУН ИБРАГИМЗАДЕ
Докторант Западно-Каспийского университета

СОВРЕМЕННЫЕ УГРОЗЫ БЕЗОПАСНОСТИ И РОЛЬ ИНСТИТУТА ПРЕЗИДЕНТСТВА: НА ПРИМЕРЕ АЗЕРБАЙДЖАНА

В современной международной системе угрозы безопасности претерпели трансформацию от традиционных военных рисков к многомерным рискам. Геополитические изменения, экономическая зависимость, технологическое развитие и трансграничные вызовы изменили среду безопасности, сделав необходимыми адаптивное управление и гибкие механизмы принятия решений. В этом контексте институт президентства приобретает решающее значение в формировании политики национальной безопасности. Статья анализирует взаимосвязь между современными угрозами безопасности и институтом президентства на примере Азербайджана. Исследование оценивает, особенно в период после Отечественной войны 2020 года, реакцию централизованной исполнительной власти на кризисы и роль элементов консенсуса в политике безопасности с теоретических и практических аспектов. Стратегическое положение Азербайджана, энергетические ресурсы и региональная динамика создают важную основу для изучения функции президентского лидерства в управлении безопасностью. Статья всесторонне исследует влияние конституционных реформ, институционального развития и стратегических решений, принятых в президентской системе, на архитектуру безопасности, а также роль института президентства в военных, энергетических, кибер- и дипломатических измерениях.

Ключевые слова: Институт президентства, Национальная безопасность, Современные угрозы безопасности, Государственное управление, Региональная стабильность, Геополитическая динамика, Политика безопасности, Конституционные реформы, Стратегическое принятие решений.

ELGUN IBRAHIMZADE
PhD Student, Western Caspian University

MODERN SECURITY THREATS AND THE ROLE OF THE PRESIDENCY: THE CASE OF AZERBAIJAN

In the modern international system, security threats have undergone a transformation from traditional military risks to multidimensional risks. Geopolitical changes, economic dependencies, technological development, and transborder challenges have altered the security environment, making adaptive governance and agile decision-making mechanisms necessary. In this context, the presidential institution holds decisive importance in the formation of national security policy. The article analyzes the interrelation between modern security threats and the presidential institution using the case of Azerbaijan. The research evaluates, particularly in the post-2020 Patriotic War period, the centralized executive power's response to crises and the role of consensus elements in security policy from theoretical and practical aspects. Azerbaijan's strategic position, energy resources, and regional dynamics create an important foundation for studying the function of presidential leadership in security governance. The article comprehensively examines the impact of constitutional reforms, institutional development, and strategic decisions adopted in the presidential system on the security architecture, as well as the role of the presidential institution in military, energy, cyber, and diplomatic dimensions.

Keywords: Presidential institution, National security, Modern security threats, State governance, Regional stability, Geopolitical dynamics, Security policy, Constitutional reforms, Strategic decision-making.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 oktyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Məmmədağa Baxışov, t.e.d. İbrahim Zeynalov.